# Onlar qalib ölkənin vətəndaşları olmaqdan qürur duyurlar

**Gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşan ümummilli lider Heydər Əliyevin imzaladığı Fərmanla fevralın 2-si Azərbaycan Gəncləri Günü kimi təsis olunub. Ümummilli Llider gənclər sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi məqsədilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin edib və gənclərin sosial, iqtisadi problemlərinin həllinə yönələn, fərman və sərəncamlar, Dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasında, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsində mühüm rol oynayıb. Ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə dövlətin böyük diqqətinin göstəricisidir. Dövlətimizin başçısının 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb.**

Ölkəmizdə gənc nəslin cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Azərbaycan gəncləri Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edərək qüdrətli dövlətə çevrilməsinə öz töhfələrini verirlər. Ölkə başçısının 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı, 2011-ci il 19 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması əsası ulu öndər tərəfindən qoyulmuş gənclər siyasətinin davam etdirilməsinin daha bir əyani təsdiqidir.

Dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Burada əsas məqsəd Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti daha da artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək və digər mühüm məsələləri inkişaf etdirməkdir.

Hər zaman Azərbaycan gənclərinin yanında olan Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə təşkil olunan respublika toplantılarında iştirakları, dövlətimizin başçısının gənclərin fəaliyyətinə yüksək diqqət verməsi, eləcə də Azərbaycan gəncliyinin qarşısında duran əsas hədəf və vəzifələri dəqiq müəyyənləşdirməsi, müxtəlif sahələrdə böyük uğurlar qazanan, fədakarlıq göstərən gəncləri təltif etməsi gənc nəslin bütün nümayəndələrini daha böyük nailiyyətlər əldə etməyə ruhlandırır.

Azərbaycan gəncləri üçün ən qürurverici günlərdən biri də sentyabrın 27-də başlayan və noyabrın 10-da qələbəmizlə başa çatan Vətən müharibəsi oldu. Rəşadətli Azərbaycan Ordusunun sıralarında Vətən uğrunda mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti və qəhrəmanlıqları sayəsində əldə olunan bu Şanlı Zəfərlə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, xalqımız 30 ilə yaxın həsrətində olduğu tarixi torpaqlarına qovuşdu.

Bu gün sosial həyatın bütün sferalarında gənclər əksəriyyət təşkil edir. Təbii ki, bu, Prezident İlham Əliyevin gənc kadrların irəli çəkilməsi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşmasının nəticəsidir. Ölkə gənclərinin hərtərəfli inkişafına ən yüksək səviyyədə diqqət və qayğı göstərən Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamı ilə "Yüksəliş" müsabiqəsi təsis edilib. Bu müsabiqənin əsas məqsədi intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatının yaradılmasıdır.

Dövlətimizin başçısının "Azərbaycan Respublikasının Gənclər Fondunun fəaliyyətinin dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 1 oktyabr tarixli Sərəncamı Azərbaycan Respublikasının şəhər və rayonlarında yaşayan gənc vətəndaşların hərtərəfli inkişafının təmin olunmasına yönəlib.

Ölkəmizdə gənclərin məşğulluğunun təmin olunması da diqqət mərkəzindədir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr yetişməkdə olan gənc nəslin gələcəyinin etibarlı təminatıdır. Eləcə də, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır.

Bu diqqət və qayğını daim öz üzərində hiss edən Azərbaycan gəncliyi göstərilən etimadı layiqincə doğrultmağa çalışır. Bu yüksək diqqətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan gənclər bütöv və müstəqil Azərbaycan naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, öz siyasətində onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

Azərbaycanda gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatının bütün sahələrində iştirakının təmin olunması onları daha işıqlı sabaha aparacaq. Bu yolda gənclərimizin ən böyük himayəçisi məhz Azərbaycan Prezidenti İlham Əliyevdir. Dövlətimizin başçısının "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" -sözləri Azərbaycan dövlətinin gənclərə etimadının, gənclərin isə Prezidentə məhəbbətinin və dəstəyinin bariz nümunəsidir.

Bu gün fəxr edirik ki, Müzəffər Ali Baş Komandanın qətiyyəti və iradəsi, səriştəli rəhbərliyi, rəşadətli Azərbaycan Ordusunun peşəkarlığı və qələbə əzmi sayəsində torpaqlarımız yağı düşmən işğalından azad olundu. İşğaldan azad olunmuş ərazilərdə tikinti-quruculuq işlərinin gənclərimizin fəal iştirakı ilə uğurla həyata keçirilməsi deməyə əsas verir ki, tez bir zaman kəsiyində bu ərazilərdə yenidənqurma işləri tezliklə başa çatacaq o torpaqların əsl sahibləri öz ata-baba yurd yerlərinə qayıdacaqlar.

**Əli SADIQOV,**
**"Respublika".**





Respublika.- 2022.- 2 fevral.- S.6.